"NAXÇIVAN" UNİVERSİTETİ / ELMİ ƏSƏRLƏR/ 2022, № 4
"NAKHCHIVAN" UNIVERSITY/ SCIENTIFIC WORKS/ 2022, № 4
УНИВЕРСИТЕТ "НАХЧЫВАН"/ НАУЧНЫЕ ТРУДЫ/ 2022, № 4

UOT 94

**NAZLI YAQUBOVA**
Naxçıvan Müəllimlər İnstitutu
nazliyaqubova92@gmail.com

# AXC HAKİMİYYƏTİ DÖVRÜNDƏ (1918-1920) AZƏRBAYCANIN QƏRB DÖVLƏTLƏRİ İLƏ ƏLAQƏLƏRİ

*Tarixin ən mürəkkəb dövründə -Birinci dünya müharibəsinin yekununda yaranan Azərbaycan Xalq Cümhuriyyəti qısa tarixinə baxmayaraq özünü bütün dünya qarşısında sübut etmişdir. Tarix boyu digər dövlətləri özünə cəlb edən bu region müxtəlif dövlətlərin əsarətində qalmışdır. Təbii sərvətləri talanmışdır. Soyqırımlara məruz qalmışdır. Xalqın milli iradəsi, azərbaycançılıq məfkurəsi, milli ideyaları bitirilməyə çalışılırdı. Bütün bunlara baxmayaraq qəlbini Azərbaycana , onun müstəqilliyinə həsr edən ziyalılarımız bu yoldan bir an belə olsun dönmədi. Canları bahasına bu milləti mariflendirməyi, mili duyğuları inkişaf etdirməyi qarşılarına məqsəd qoymuşdular. Azərbaycan Xalq Cümhuriyyəti xalqımızın dünya qarşısında müstəqillik hayqırışlarıdır.*

***Açar sözlər:*** *Azərbaycan Xalq Cümhuriyəti, qərb dövlətləri, Rusiya, tanınma*

1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması Azərbaycan xalqının həyatına böyük və əlamətdar hadisə kimi əbədi daxil olmuşdur. Həmin tarix əvvəllər Respublika günü kimi, 2021 ci ildən isə Müstəqillik günü kimi təntənə ilə qeyd edilir.

Xalqımızın milli dövlətçiliyə nail olmaq arzularının gerçək ifadəsi olan və ömrü cəmi 23 ay çəkən Azərbaycan Xalq Cümhuriyyəti ürəklərdə elə bir məşəl alovlandırdı ki, təqribən, 70 il ərzində hökmranlıq etmiş totalitar kommunist rejiminin amansız cəza-repressiya maşını da bu məşəli söndürə bilmədi. "Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini daha da gücləndirmiş oldu" . XX əsrin 80-ci illərinin ortalarından etibarən bütün dünyada, o cümlədən Azərbaycanda baş qaldıran milli oyanış dalğası əzəmətli xalq hərəkatına çevrilərək, yeni dünya nizamının təməlini qoyanda Azərbaycan Xalq Cümhuriyyətinin idealları xalqımız üçün mayaka döndü.

28 may 1918-ci ildə müstəqilliyini elan etmiş gənc Azərbaycan Xalq Cümhuriyyəti xarici siyasət məsələlərinə xüsusi diqqət yetirirdi. İstiqlaliyyətin qorunub saxlanması daxildən daha çox, xarici amillərlə də bağlı idi. I Dünya müharibəsinin getdiyi mürəkkəb beynəlxalq şəraitdə - iştirakçı ölkələrin Qafqaz və onun zəngin guşələrindən olan Azərbaycan uğrunda hərbi əməliyyatların genişləndiyi dövrdə Azərbaycanın dövlət müstəqilliyinin qorunması onun uğrunda mübarizələrdə yetişmiş siyasətçilərdən və dövlət xadimlərindən hər an dəyişən vəziyyətə uyğun çevik siyasi manevr bacarığı tələb edirdi. Azərbaycan diplomatiyasının bu çətin vəzifənin öhdəsindən gəlməsi üçün 1918-1920-ci illər dövründə təşkil olunmuş müxtəlif hökumət kabinetlərində Xarici İşlər Nazirliyinin möhkəmləndirilməsi və təşkilati strukturunun təkmilləşdirilməsinə böyük diqqət yetirilirdi. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasət idarəsinə müxtəlif vaxtlarda dovrünün ziyalıları, dünya siyasətinin sirlərinə bələd olan, çevik diplomatik bacarığa malik Fətəli Xan Xoyski, Məmməd Həsən Hacınski, Məmməd Yusif Cəfərov, Adil xan

Ziyadxanlı başçılıq etmişdilər. Azərbaycan diplomatiyasının hazırlanmasında və həyata keçirilməsində Ə.M.Topçubaşov, Məhəmməd Əmin Rəsulzadə, Ə.Ağayev, N.Yusifbəyli, Ə.Şeyxülislamov, Ceyhun Hacıbəyli, M.Y.Mehdiyev. M.Məhərrəmov, Ə.Haqverdiyev, Y.V.Çəmənzəminli və digərləri yaxından iştirak etmişlər (".S.241).

Milliyyətindən və dini etiqadından asılı olmayaraq qonşu dövlətlərlə mehriban münasibətlər Azərbaycan diplomatiyasının aparıcı istiqaməti olub, onun çıxış nöqtəsini təşkil edirdi. Böyük dünya siyasəti baxımından Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasətini üç dövrə bölmək olar:Türkiyə oriyentasiyası dövrü (1918-ci il may-oktyabr); Qərb oriyentasiyası dövrü (1918-ci il noyabr-1920-ci il yanvar); geniş və hərtərəfli dünya əməkdaşlığına daxil olmaq uğrunda mübarizə dövrü - (1920-ci il yanvar-aprel).(2.S.245)

XX əsrin əvvəllərindən Azərbaycanda genişlənən milli-azadlıq mübarizəsində onun öncülləri Osmanlı dövlətinə boyük ümid bəsləyirdilər. Əsrin əvvəllərindəki təlatümlü hadisələr Azərbaycanın türk-müsəlman əhalisinin həyatında milliyyətçilik ideyasının geniş yayılmasına və inkişafına ciddi təkan verdi.

I Dünya müharibəsinin sonunda Böyük Britaniyanın Azərbaycana marağı müstəsna dərəcədə artmışdı. Bu, bir tərəfdən, Almaniya-Türkiyə blokunun Qafqaza meylinin güclənməsi, digər tərəfdən isə dünya neft istehsalının böyük bir hissəsinin Bakının payına düşməsi ilə bağlı idi. Müharibə ərəfəsində Rusiyada-hasil edilən neftin 83 faizi Bakıda çıxarılırdı. I Dünya müharibəsində iştirak edən ölkələr isə Bakı neftinə çox vaxt qələbəni müəyyən edən amil kimi baxırdılar. İngiltərənin baş naziri Lloyd Corcun fikrincə, müharibənin sonunda Antantanın üstünlüyünə baxmayaraq, alman bloku Bakı neftindən istifadə edərdisə, hərbi əməliyyatların hansı nəticələr verəcəyini qabaqcadan söyləmək olmazdı. Ona görə də Yaxın və Orta Şərqdə möhkəmlənmiş İngiltərə qoşunları 1918-ci ilin mayından başlayaraq Bakı istiqamətində hərəkətə başladı. Lakin bu zaman Cənubi Azərbaycanda möhkəmlənmiş Türkiyə qoşunları onların hərəkətini dayandırdı və ingilislərin Bakıya müdaxiləsi 1918-ci ilin avqustuna qədər mümkün olmadı. Bakıda XKS-nin hakimiyyəti devrildikdən sonra sentrokaspiçilərin ilk addımı Ənzəlidə dayanmış ingilisləri Bakıya dəvət etmək oldu. Avqustun 4-də polkovnik Stoksun başçılıq etdiyi ilk qoşun dəstəsi Bakıya daxil oldu. Avqustun ortalarında general Denstervil başda olmaqla min nəfərlik ikinci hərbi dəstə Azərbaycana gəldi. Şəhərin xristian əhalisi ingilisləri böyük sevinclə qarşıladı. Mart qırğınlarını törətmiş ermənilər ingilislərin simasında öz xilaskarlarını görürdülər. Lakin Britaniya qüvvələrinin azlığı onların ümidlərini puça çıxartdı.

Bakıya gələn Britaniya qoşununun çoxsaylı olması haqda məlumatların şayiə olduğunu bilən Qafqaz İslam Ordusu şəhəri azad etmək uğrunda son hərbi əməliyyatlara başladı. 1918-ci il sentyabr ayının ortalarında Britaniya qoşunu general Denstervil başda olmaqla Bakını tərk etmək məcburiyyətində qaldı. Lakin 1918-ci ilin payızında iki aylıq fasilədən sonra onlar yenidən Bakıya qayıtdılar. Bu, Türkiyə və onun müttəfiqlərinin Birinci Dünya müharibəsində tam məğlubiyyəti ilə bağlı idi.

1918-ci il noyabrın 17-də müttəfiqlərin qoşunları Bakıya daxil oldu. Bundan az əvvəl, Azərbaycan hökuməti ABŞ prezidenti V.Vilsona, öz

fəaliyyətini bərpa etmiş Milli Şura isə dünya dövlətlərinə müraciətlər qəbul etdilər. Müttəfiqlərin gəlişi Azərbaycanın istiqlaliyyətini ciddi təhlükə qarşısında qoydu. Rus və erməni milli şuralarının cəhdlərinə baxmayaraq, Bakıda vəziyyətlə yaxından tanış olduqdan sonra, general V.Tomson bildirdi ki, onun "Bakıda ən bacarıqlı adamlardan biri" saydığı Fətəli xan Xoyskinin hökuməti ölkədə koalisiya hökuməti təsdiq edilənə qədər yeganə təsirli hökumət olaraq qalır.

Balkanlarda və Qafqazda olan ingilis qoşunlarının baş komandanı general Corc Miln az sonra Bakıya gələrək V.Tomsonun bəyanatını təsdiqlədi və bildirdi ki, Böyük Britaniya hökuməti Azərbaycan hökumətini bu ölkənin bütün ərazisində yeganə qanuni hakimiyyət kimi tanıyır. Azərbaycan hökumətində qəbul zamanı o dedi: "Mən buraya böyük müttəfiq millətlərin nümayəndəsi kimi gəldim. Məqsədimiz məmləkətdə sülh və ədaləti bərpa etməkdir. Müttəfiqlərin qələbəsi hüquqi-ədalət və millətlərin təyini-müqəddəra-ixtiyari təmininin rəhnidir. Sülh konfransında burası bəyan ediləcəkdir. İbraz etdiyiniz hüsni-istiqbaldan naşı təşəkkürümü bəyan edirəm. Qoşunlarımız məmləkətinizdə bulunduqca hüsni-qəbul və hər dürlü müzahirət görəcəklərinə ümidvaram. Məmləkətinizin ticarət sənaətinin tərəqqisinə var qüvvəmiz ilə çalışacağıq. (2.S.390)

Fətəli xan Xoyski ilə danışıqlar zamanı C.Miln bildirdi ki, "Azərbaycan dairəsində İngiltərə hökuməti Azərbaycan hökuməti-Cümhuriyyəsini tanıyır və qəbul edir və hökumətə müttəfiqlər komandanlığı hər barədə kömək edəcəkdir. Ayrı-ayrı millətlərin təyini-müqəddərat hüququ İngiltərə hökuməti nöqteyi-nəzərincə müdafiə edilməlidir. Sülh konfransında İngiltərə nümayəndələri bunu müdafiə edəcəklərdir. Bundan əlavə, general bəyan etmişdir ki, müttəfiqlər komandanlığı təzə təşkil edilmiş Zaqafqaziya hökumətlərinin daxili işlərinə qarışmayacaqdır. Və müttəfiqlərin yeganə məqsədi bu dövlətlərdə asayiş və müsalimətə kömək etməkdir". Əlbəttə, bu, tək general C.Milnin fikri deyildi, 1918-ci ilin dekabr ayında Cənubi Qafqaz məsələsi bir neçə dəfə Britaniya hökumətinin iclaslarında müzakirə edilmişdi. Lord Kerzon bu fikirdə idi ki, Cənubi Qafqazda sabitlik lazımdır, əks təqdirdə "anarxiya, qarma-qarışıqlıq, yaxud bolşevizm" bu regionda ingilis siyasətinə maneçilik törədə bilər.(3.S.89)

1919-cu ilin əvvəllərindən başlayaraq İngiltərə-Azərbaycan əlaqələri Bakıda olan ingilis komandanlığı, İstanbuldakı ingilis hərbi və diplomatik nümayəndəliyi, sonralar isə Paris Konfransında təmsil olunan sülh heyəti vasitəsilə həyata keçirilirdi.

Dekabr ayında ingilislər Batum və Tiflisi də tutdular və 1919-cu ilin yayına qədər Qafqazda qaldılar. İngilislərin Azərbaycanın daxili işlərinə müdaxilə etməsi tədricən aradan qaldırıldığına görə, Azərbaycan hökuməti bütün işləri öz əlində toplayır, addımbaaddım tam irəliləyərək müstəqilliyini bərqərar edirdi. U.Çörçill sonralar öz xatirələrində yazırdı ki, Cənubi Qafqaza daxil olmuş 20 minlik Britaniya Ordusunun yardımı ilə Gürcüstan, Ermənistan və Azərbaycan tam müstəqil olmalı idi və bu müstəqil dövlətlər İrana və Türkiyəyə bolşeviklərin gözlənilən müdaxiləsinin qarşısında durmalı idilər.[13] Azərbaycan xarici siyasətinin qarşısında duran ciddi məsələlərdən biri qonşu dövlətlərlə qarşılıqlı mehriban münasibətlər yaratmaq, müəyyən məsələlərə münasibətdə Qafqaz həmrəyliyinə nail olmaq idi. Azərbaycan parlamentinin Dağıstan, Gürcüstan və Ermənistana göndərdiyi müraciətdə deyilirdi: "Qafqaz elə bir

vəziyyət qarşısındadır ki, bu ərazi üzərində qurulmuş olan cümhuriyyətlər müqabil dostluq və həmrəylik yapmadan yaşaya bilməzlər".

Azərbaycan Nümayəndə heyyəti PSK

Dövlətin tanınması Azərbaycan nümayəndə heyətinə Versal Sülh Şurasının müxtəlif, o cümlədən hökumət başçıları səviyyəsində keçirilən iclaslarında rəsmən iştirak etmək, öz hüquq və ehtiyacları haqqında danışıqlar aparmaq imkanı vermişdi. Nümayəndə heyəti o dövrün beynəlxalq səhnəsində həlledici təsirə malik olan siyasi xadimlər - Lloyd Corc, Klemanso, lord Kerzon, Çeçil, Vilson, Foş və digərləri ilə konfransın bütün iclaslarında bir yerdə oturmaq, onlarla müzakirələr aparmaq imkanı qazanmışdı. Sonda bu müzakirələr müttəfiq dövlətlər tərəfindən Azərbaycana yardım göstərilməsi haqqında qərarın qəbul edilməsi ilə nəticələndi. Böyük Britaniyanın dövlət xadimi lord Kerzon Azərbaycanın dövlət müstəqilliyini qorumaq məqsədilə ona yardım göstərilməsini təklif etmişdi. O, 1920-ci ilin əvvəllərində İngiltərə parlamentində azərbaycanlılara və Anadolu türklərinə qarşı ermənilərin törətdikləri vəhşiliyi dünyaya bəyan etmiş, çıxışını belə bitirmişdi: "Mənə elə gəlir ki, siz erməniləri 8 yaşında təmiz və məsum bir qız zənn edirsiniz. Bu fikirdə çox yanılırsınız. Halbuki ermənilərin son vəhşi davranışları ilə nə qədər qantökən olduqlarını özləri büsbütün isbat etmişlər".(2.s.345)

Azərbaycanın Paris Sülh Konfransında iştirak edən nümayəndə heyəti lord Kerzonu həmişə böyük hörmətlə xatırlayırdı.

1918-ci il dekabrın 28-də Azərbaycan Xalq Cümhuriyyəti Hökuməti parlamentin ağsaqqallar şurası üzvlərinin iştirakı ilə Paris Sülh Konfransına göndəriləcək Azərbaycanın nümayəndə heyətinin tərkibini müəyyən etdi. Parlamentin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinə Məmməd Həsən Hacınski, Əhməd bəy Ağayev, Əkbər ağa Şeyxülislamov, Məhəmməd Məhərrəmov, Mir Yaqub Mehdiyev və Ceyhun bəy Hacıbəyli daxil idilər. İstanbula gedən nümayəndə heyəti üç ay orada gözlədikdən sonra, nəhayət, 1919-cu il aprelin 22-də İtaliya gəmisi ilə Fransaya yola düşdü və mayın əvvəllərində Parisə çatan nümayəndə heyəti hələ İstanbulda ikən Ə.Topçubaşov Ə.Ağayev və C.Hacıbəyli tərəfindən hazırlanmış "Qafqaz Azərbaycan Cümhuriyyətinin Paris Sülh Konfransına memorandumu" adlı sənəd üzərində yenidən işləyərək, onu daha da təkmilləşdirdi. Məqsəd memorandumu Paris Sülh Konfransının keçirildiyi ingilis və fransız dillərində kitabça şəklində hazırlayıb konfrans iştirakçılarına paylamaq idi. "Qafqaz Azərbaycam Cümhuriyyətinin Paris Sülh Konfransına memorandumu" on dörd bölmədən ibarət idi. Memorandumun ən mühüm bölmələri Azərbaycan Xalq Cümhuriyyətinin ərazisi və əhalisinə aid bölmələr idi. Ermənistanın, Gürcüstanın və İranın konfransa təqdim etdikləri ərazi iddiaları bilavasitə Azərbaycana qarşı yönəldiyindən, cümhuriyyət ərazilərinin tarixən ona məxsus olması, Azərbaycana qarşı iddia qaldırılmış ərazilərdə əhalinin böyük əksəriyyətini ta qədimdən azərbaycanlıların təşkil etməsi tarixi faktlarla əsaslandırılırdı.(3.67)

Nəticə olaraq Azərbaycan nümayəndə heyətinin tələbləri konfrans nümayəndələrinin ciddi müzakirələrinə səbəb oldu və nəhayət, bəhrəsini verdi. 1920-ci ilin yanvarın 11-də Paris Sülh Konfransının Ali Şurası Azərbaycan Cümhuriyəyətinin varlığını de-fakto tanımaq barədə qərar qəbul

etdi. Bu, Azərbaycan Parlamentinin sədri Ə.Topçubaşovun rəhbərlik etdiyi sülh nümayəndə heyətinin, ümumiyyətlə isə, Azərbaycan xalqının, Hökumətinin və diplomatiyasının böyük qələbəsi idi

**Nəticə**

Əsası Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən qoyulmuş dövlətçilik ənənələrinin, mədəni, elmi, iqtisadi kadr potensialının mövcudluğu xalqımıza öz varlığını, mədəniyyətini, --15 respublikadan biri olmağa, onun süqutundan sonra isə yenidən dirçəlib Azərbaycan Respublikası kimi tarixin səhnəsinə çıxmağa imkan verdi. AXC-nin Azərbaycan tarixində oynadığı böyük rola ən yüksək qiyməti uzun illər sonra müasir müstəqil Azərbaycan dövlətinin banisi və memarı, ümummilli lider Heydər Əliyev vermişdir: "Azərbaycan Xalq Cümhuriyyəti gərgin və mürəkkəb ictimai şəraitdə cəmi 23 ay fəaliyyət göstərsə də, sonrakı nəsillərin yaddaşında xalqımızın tarixinin ən parlaq səhifələrindən biri kimi həmişə qalacaqdır. O, demokratik dövlət quruculuğu, iqtisadiyyat, mədəniyyət, təhsil, səhiyyə, hərbi quruculuq sahələrində atdığı mühüm addımları başa çatdıra bilməsə də, qısa müddətdə həyata keçirdiyi tədbirlər xalqımızın tarixində silinməz iz buraxmış, milli dövlətçilik ənənələrinin bərpası işində böyük rol oynamışdır. Ən əsası da odur ki, Azərbaycan Xalq Cümhuriyyəti az yaşasa da, xalqımızda azadlıq, müstəqillik fikirlərini gücləndirmiş oldu". Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi və mənəvi varisi olan Azərbaycan Respublikası 1918- 1920-ci illərdə toplanmış böyük tarixi təcrübəyə söykənərək, demokratik dövlət quruculuğunu dönmədən həyata keçirir və inkişaf etdirir. Bu gün ulu öndər Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanda həyatın bütün sahələrində gerçəkləşdirilən möhtəşəm islahatların bəhrələrini gördükcə tam əsasla demək olar ki, Azərbaycanın müstəqilliyi dönməz və əbədidir

**ƏDƏBİYYAT**


1. Məmmədzadə M.B. Milli Azərbaycan hərəkatı..Ankara, 1991, 154 .s. (Türk dilində).
2. Həsənli C. Azərbaycan Xalq Cümhuriyyətinin xarici siyasəti 1918-1920.Bakı 2009 .Garisma MMC nəşriyyat. 469. s
3._Rəsulzadə M.Ə. Azərbaycan Cümhuriyyəti. Bakı, 1990.Elm. 113.s
4 ._Həsənov C. Azərbaycan beynəlxalq münasibətlər sistemində. Bakı, "Azərbaycan" nəşriyyatı, 2005. 631 s.
5. Azərbaycan tarixi. Yeddi cilddə. V cild. Bakı., 2008. 696 .s
6. Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası. Bakı, 2005. Lider nəşriyyatı. 241.s



**РЕЗЮМЕ**

**НАЗЛИ ЯКУБОВА**

**ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАНА С ЗАПАДНЫМИ ГОСУДАРСТВАМИ В ПЕРИОД ПРАВИТЕЛЬСТВА АХР (1918-1920 ГГ.)**

Несмотря на свою недолгую историю, Азербайджанская Демократическая Республика, созданная в сложнейший период истории - в конце Первой мировой войны, зарекомендовала себя всему миру. На протяжении всей истории этот регион, привлекавший другие страны, был порабощен разными странами. Их природные ресурсы были разграблены. Он подвергся геноциду. Старались довести до конца национальную волю народа, идеологию азербайджанства, национальные идеи. Несмотря на все это, наша интеллигенция, посвятившая свое сердце Азербайджану и его независимости, ни на мгновение не сворачивала с этого пути. Ценой своей жизни они поставили перед собой цель воспитать этот народ и воспитать патриотизм. Азербайджанская Демократическая Республика – это клич независимости нашего народа перед всем миром.

**Ключевые слова:** Азербайджанская Демократическая Республика, страны Запада, Россия, признание.

**SUMMARY**

**NAZLI YAQUBOVA**

**RELATIONS OF AZERBAIJAN WITH THE WESTERN STATES DURING THE PERIOD OF THE AXP GOVERNMENT (1918-1920)**

Despite its short history, the Azerbaijan Democratic Republic, which was established in the most complicated period of history - at the end of the First World War, has proven itself to the whole world. Throughout history, this region, which has attracted other countries, has been enslaved by different countries. Their natural resources have been looted. Our country was subjected to genocides. The national will of the people, the ideology of Azerbaijanism, and national ideas were tried to be finished. Despite all this, our intellectuals, who devoted their hearts to Azerbaijan and its independence, did not turn from this path even for a moment. At the cost of their lives, they set themselves the goal of educating this nation and developing patriotism. The Azerbaijan Democratic Republic is the voice of independence of our people before the world.

**Keywords:** Azerbaijan Democratic Republic, Western countries, Russia, recognition

*(AMEA-nın müxbir üzvü Hacı Fəxrəddin Səfərli tərəfindən təqdim edilmişdir)*